**Eşqi var idi Şəhriyarın...Şəhriyar yaradıcılığında qadın - Esmira Fuad yazır**

Qadın bütün çağlarda türk xalqlarının həyatında önəmli yer tutub. Orta əsrin ən böyük səyyahı və məşhur "Rehlet-ü İbn Battuta" adlı səyahatnamənin müəllifi İbn Battuta (1304-1369) "Töhfətün-Nüzzar fi Qəraibil-Əmsar və Əcaibil-Əsfar" əsərində yazır: "Türk və tatar ulusları yanında qadınlar çox etibar görürlər. Onlar bir buyruq yazdıqlarında: "Sultanın və xatunlarının əmri ilə" ifadəsini mütləq qoyarlar! Qadınların hər biri bəzi əyalətlərin idarəsinə ortaqdır, böyük gəlirlərin sahibidirlər. Onlar hökmdarlarla yanaşı səfərə çıxarlar, lakin öz başlarına ayrı bir qərargahda gözləyərlər".

İslamdan əvvəlki Şumer Şərqində də "qadın çox yüksək tutulurdu və qadına qarşı ruhani təzyiq olmurdu. Ən böyük ilahilər qadın simasında və qadın adında tutulurdu. Ərlə arvad arasındakı münasibət yüksək səviyyədə idi. "Kitabi-Dədə Qorqud" dastanında da bu tendensiya gözlənilib. Qadın ox, nizə atır, düşmənlə vuruşurdu... Döyüşür, həm də namusunu saxlayır, at üstündə gəzirdi. Onun üçün xüsusi hərəmxana düzəltməmişdilər və qeyrət özü də azad idi. Qeyrətsizliyə ehtiyac hiss eləmirdi türkçü. Qadın ilahiliyin rəmzi idi, o, dünyadan gizlədilmirdi, ərinin dostu idi, ər onun ağası deyildi. Onun başının taxtı, həm də ulu bəxti idi" .

XX əsrin sənət dahisi ustad Məhəmmədhüseyn Şəhriyar da başının taxtı, ulu bəxti sandığı Azərbaycan qadınından bəhs edib və zəngin yaradıcılığında qadın konusuna çox böyük önəm verib...

Təbii, bütün bəşəriyyətin, eləcə də yazarların, sənət adamlarının həyatında üç qadının çox böyük təsiri-etkisi olur. Bu etkini yaradanlardan birincisi onları dünyaya gətirən, canından can verən qutsal varlıq - Anadır. İkincisi sevdikləri qadın, bütün romantik xəyallarının oluşdurduğu eşq aləminin taxtında oturan sevgili, üçüncüsü isə uşaqlarının anası, evlənib ailə, isti bir yuva qurduğu qadındır... Şəhriyarın da həyatında bu üç varlığın güclü təsiri olub və onlara duyduğu böyük sevgi bütün yaradıcılığına hopub... Bu qadınlar nisgilli ömrünün ayrı-ayrı mərhələlərində onun sərhədsiz sevgi dünyasının ən möhkəm dayağı, həyatının bəzəyi, könül sirdaşı, dərd ortağı olmuşlar...

Bu varlıqların birincisi onu dünyaya gətirən qadın - anası Kövkəb xanımdır. O Kövkəb xanım ki, oğlunun Tehranda xəstələndiyini eşidən kimi, sanki qanadlanıb uçaraq onun dadına yetmiş, ana şəfqəti, məhəbbəti ilə dərdinə məlhəm olmağa tələsmişdi. "Heydərbabaya salam" poemasının 1954-cü il ilk geniş nəşrinin müqəddiməsində Şəhriyar yazırdı: "O vaxt ki, mərhum anam Tehrana gəldi, onun sehrli təsiriylə keçmiş günlərin əyləncələri və uşaqlığımın şən, məsud anları

yavaş-yavaş zehnimdə canlandı, ölülər dirildi və o zaman tablolar öz rənglərilə yenidən cızıldı" .

Körpə ikən qurduğu sevgi dünyası anası Kövkəb xanımla sınırlanırdı. Lakin onun uşaqlıq çağlarında anasına duyduğu sevgi çox dərin, bütöv və böyük olub. Xatirələrində yazır ki, "uşaqkən anamla hamama gedərdik. Altı yaşıma çatanda qadın hamamına getmək mənə qadağan olundu. Uşaqlarla oynayıb evə gəldikdə anamın hamama getdiyini görsəydim, qaçıb qapısının ağzını kəsdirərdim. Bəzən iki hamamın qapısında oturub gözləyərdim. Anam gələnə qədər oynamağa və başqa əyləncələrə göz yumardım. Anamı görən kimi dizlərini qucaqlayar, qəzəbdən məni uçunma tutardı. Anam da mənim tayım olduğundan narahatlıq keçirərdi. Hər ikimiz ağlar gözlə evə gəlirdik, elə bil iyirmi il idi ki, bir-birimizi görmürdük". "Ey-vay, Anam!" qəsidəsində "Anam məni yaratmış, mən aləm yaratmışam" gerçəyini sərgiləyən şair anasının parlaq obrazını yaratmışdır:

Şeirimdə, kədərimdə, xəyalımdadır anam,

Şairliyim də mənə ondan miras qalıb bil,

Məhəbbət ölən deyil...

Oxuduğu o gözəl, həzin, doğma nəğmələr,

Qəlb oxşayan nağıllar, ürək açan kəlmələr

Bələkdə olan zaman hopub ruhuma mənim...

Laylalarla köklənib əsəblərim, bədənim...

Bəzən də göz yaşıyla ruhuma su səpərdi,

Qayğıyla, nəvazişlə verib mənə bu dərdi...

Varlığımda elə bil ildırım çaxıb mənim.

O ilhamla yoğrulub mənim sevgi aləmim...

Kövkəb xanımın: "Ay oğul, deyirlər, sən böyük şairsən. Axı, mən sənin yazdıqlarını başa düşə bilmirəm. Olmazmı öz dilində yazasan, mən də anlayım və zövq alım?", - gileyi Şəhriyarı ana dilində yazıb-yaratmağa səfərbər edir. Dil aydınlığı, sadəliyi, axıcılığı ilə oxuyan hər kəsi heyrətdə qoyan "Heydərbabaya salam" mənzuməsini Şəhriyar anasının xatirəsinə, doğma el-obaya, qohum-qardaşa ithaf edərək, sanki onların qarşısında mənəvi borcunu yerinə yetirir və Türk dünyasının fəxr edib öyündüyü bir sənətkara çevrilir. Ana xeyir-duası və

şairlik istedadı onu şöhrət dağının zirvəsinə yüksəldir... Yaradıcılığı yüzlərlə şairi qələmə sarılmağa, onları yeni-yeni "Heydərbabaya salam"lar yaratmağa ruhlandıran ilham qaynağına çevrilir. Bu ədəbi proses elə bir dövrdə baş verirdi ki, ölkədə öncə Rza şah, sonra isə Məhəmmədəli şah Pəhləvi rejimi tərəfindən Türk kimliyi və türk dili aşağılanır, qəti olaraq yasaqlanırdı... Təbii, rejimin tələbinə uymaq qaçılmaz idi. "Gənc Şəhriyar da bu ölkədə sosial status qazanmaq və maddi həyatını təmin etmək üçün farsca yazmalı, fars dili vasitəsilə yüksəlməli idi". Və o, məhz bu yolu tutmuş, farsca yazdığı əsərləri ilə artıq çağdaş İran ədəbiyyatının avanqard şairi səviyyəsinə yüksəlmiş, əsrinin "Hafizi-sanisi", "Sədisi" statusunu qazanmışdı.

1952-ci ildə Kövkəb xanımın dünyanı əbədi tərk etməsi şair oğulun qəlbini yaralayır və "Heydərbabaya salam" poemasının II hissəsini yazır. Oxucuların ruhunu yerindən oynadan bu möhtəşəm əsərin II hissəsini türkcə qələmə almaqla onun ruhunu şad etdiyini düşünür və təsəlli tapır: "Şeirə əski və dərin bir ilgim var idi, yazdığım hər yanıqlı parça bir dostdan ayrılmanın acısıyla vücuda gəlmişdi. Hər hansı bir sevgilidən ayrılarkən qapıda vida göz yaşı tökmək insanların təbii bir halıdır. Vida edərkən tökdüyüm son göz yaşı damcılarından "Heydərbabaya salam" mənzuməsiylə "Vay, vay madərəm (Ey-vay, anam!)" parçası meydana gəldi".

"Əvvəlcə atanın, sonra isə ananın olmasına baxmayaraq, ey qardaş, son nəticə övladın dünyaya gəlməsidir". Şair məhz bu səbəbdən "ülfətim, şəfqətim, həsrətim" deyə müraciət etdiyi anasının və bütün anaların isti qucağını, hətta onların ayaqları dəyən, toxunan yeri cənnət, behişt sanırdı:

Bəşərdə anaya ehtiram olsa,

Tökməz bir-birinin qanını əsla.

Dünyanı fəth etsə ana hörməti,

Yaradar dünyada əsl cənnəti.

Belə söyləmişdir böyük Məhəmməd:

"Ana ayağının altıdır Cənnət".

Şəhriyar şeiriyyətinə ilk olaraq kədər naxışları qonduran, könül sazını qəm notları üzərində kökləyən və yaradıcılığına güclü təsir göstərən varlıqlardan ikincisi şairin ilk sevdası, Tehran Universitetinin tibb fakültəsində oxuyarkən aşiq olduğu Sürəyya adlı bir qızdır. Min təəssüflər ki, evlərində tez-tez qonaq olduğu tələbə yoldaşının bacısı, Şah ordusunun polkovnikinin qızı olan Sürəyyaya duyduğu

böyük eşqi uğursuzluqla nəticələnir. Belə ki, öləsiyə sevdiyi, həmişə "Pəri" deyə çağırdığı Sürəyya zorla Rza şah Pəhləvinin yaxın qohumu Çırağəli xana (Əmiri Əkrəm) ərə verilir. O, Sürəyyanı son dəfə görmək üçün qızın anasına yalvarır və görüşmələrinə şərait yaratmasını xahiş edir. Bu yalvarışlar naçar ananı yumşaldır və o, görüşə razı olur. Tehranın Behcətabad parkında görüşməyi planlaşdıran Şəhriyar həmin görüş zamanı Pərini qaçıracağına qərar vermişdi… Lakin sevgilisini son dəfə görmək və amacına ulaşmaq niyyəti ilə gecə Behcətabad parkına gələn şair sevdiyini orada görmür. Səhərədək gözləyir, amma "Pəri" gəlmir. Bütün ömrü boyu unuda bilmədiyi həmin uğursuz gecə ona doğma türkcədə məşhur "Behcətabad xatirəsi" adlı qəzəlini yazdırır və sabaha qədər çəkdiyi dözülməz ağrı-acını şeirləşdirir. Bu misilsiz sevgi qəzəli ilə yaşadığı sonsuz iztirab duyğularını bəyan edir. Təsadüfi deyil ki, bütün insanların, xüsusən yazarların "acı çəkdiklərində, yuxu gördüklərində, yəni ruhən təsirləndiyi zamanlarda ana dilləri yardımına gələr. "Behcətabad xatirəsi" o qədər sadə, o qədər arınmış türkcədə yazılmış ki, oxucunun ruhuna atəş vurub yaxır. Şəhriyarın şah əsərlərindən biri də bu qəzəldir. Hətta başqa heç bir şey yazmasaydı, yenə də sırf bu qəzəli üçün o, türkcənin ən böyük şairi sayıla bilərdi" .

Daha sonra "Pəri", "Bu gecə", "Həzin nalələr", "İntizar", "Əlim ətəyinə", "Köynəyin qoxusu", "Qəmli ney", "Eşqin intiqamı", "Odda yanan pərvanə", "Səfərdəki ay", "İtmiş Yusif", "Mənim taleyim", "Suzi-saz", "İndi niyə?", "Tarım mənim" və s. qəzəllərində dünyasını qaraldan bəlalı eşqini, ayrılıq cövrünü, Pəriyə öləsiyə həsrətini dilə gətirir. Bu həsrətin, acının ən bariz ifadəsini "Behcətabad xatirəsi" adlı qəzəlində görürük:

Ulduz sayaraq gözləmişəm hər gecə yarı,

Gec gəlmədədir yar yenə, olmuş gecə yarı.

...Qorxum budu, yar gəlməyə birdən yarıla sübh,

Bağrım yarılar, sübhüm, açılma tarı!

Eşqin ki, qərarında vəfa olmayacaqmış,

Bilməm ki, təbiət niyə qoymuş bu qərarı?

Oldum qaragün ayrıları o sarı teldən,

Bunca qara günlərdir edən rəngimi sarı.

Eşqi var idi Şəhriyarın güllü, çiçəkli,

Əfsus, qara yel əsdi, xəzan oldu baharı.

"Naz eyləmisən", "Getmə, Tərsa balası", "İndi niyə?" qəzəllərinin də ünvanı sevdiyi qadın, ürəklə Azərbaycan gözəli dediyi bir varlıq, bu sevgini haqq edən xanımdır...

Şəhriyarın həyatında önəmli yeri olan, yaradıcılığında dərin izlər qoyan üçüncü qadın ömür-gün yoldaşı, özündən 25 yaş kiçik olan bibisi nəvəsi Əzizədir. Şair 1953-cü ildə, 48 yaşında ikən onunla evlənir. Bilirik ki, Əzizə ilə izdivacı Şəhriyarın sıxıntılı və qəmli ömrünə bir bahar təravəti gətirir, "cəhənnəm"li günlərini, ələmli həyatını cənnətə çevirir. Şairin "Bəlalı baş" adlı yumor naxışlı şeirinin qəhrəmanı Əzizə xanımdır... Ömür tarlasında özünü öküzə, Əzizə xanımı da aralarındakı yaş fərqinə görə buzova bənzədən şair ailədaxili söz-söhbətin sonucu olaraq yazdığı qəzəldə "Ər-arvad savaşı, yaz yağışı" kəlamının məna yükünə yaslanaraq ciddi görünən duruma xoş ovqat qatır və ilk misradaca "Yar günümü göy əsgiyə tutdu ki, dur məni boşa, Cütcü görübsən heç cütə, öküz qoyub buzov qoşa!" deyir.

Azərbaycan qadını öz növbəsində sevib-seçdiyi türk oğlu ilə girdiyi nikaha müqəddəs yanaşır və bu qutsal nikah nəticəsində doğulmuş körpələr ailənin bünövrəsini daha da möhkəmləndirir. Qadın, əgər evləndiyi kişi ilə xasiyyətləri uyuşmazsa, aralarında anlaşılmazlıqlar olsa da, ailənin şərəfini qorumaq, övladlarının qəlbisınıq böyüməməsi naminə üstündən keçilməsi mümkün olan nöqsanlara, günahlara göz yumur, ömür boyu nikahlarını, ailə saflığını qoruyur. Şəhriyar obrazlı şəkildə milli tipikliyin, özünəməxsusluğun bu cəhətlərinə diqqəti yönəldir:

İndi bizim maral kimi üç balamız vardı, gərək

Ata-ana savaşsa da, bunlara xatır barışa.

Lakin Şəhriyarın ailə səadəti də uzun sürmür, uca Tanrı bu xoş həyatı da, sanki ona çox görür, sevimli xanımı ilə birgə həyatları 23 ildən sonra yarımçıq qalır...

Belə ki, şair ailəsi ilə 1976-cı ildə doktor Cavad Heyətin təkidi və yardımı sayəsində Tehranda bir evdə yerləşir. Əzizə xanım bu gedişə əvvəlcə qəti etiraz etsə də, sonra, bəlkə də, həssas şair qəlbini incidə biləcəyini düşünərək razılıq verir. Və bu gediş Şəhriyara uğur gətirmir. 40 yaşına çatmayan Əzizə xanım ürək infarktından dünyasını dəyişir və o, Tehranın "Behişti-Zəhra" qəbiristanlığında dəfn edilir. Bu itki şairin belini bükür və o, sevimli xanımına "Əzizə can", "Bir gəlin" mərsiyələrini yazaraq üzüntü və iztirabını, analarının ölümündən sonra körpə quzutək mələr qalmış üç balasının "Ana vay!" fəryadlarını ifadə edir. Bu üzücü hadisə ilə bağlı yaşadığı fərdi kədər, qüssə Şəhriyarı son nəfəsinədək

müşayiət edir. Dərdli şair cavan xanımının ölümündən duyduğu üzüntüləri ona həsr etdiyi mərsiyədə ifadə edir:

Nə zərif bir gəlin, Əzizə, səni

Mənə layiq Tari yaratmışıdı.

Adı batmış əcəl gələndə bizə,

Mən ayım çıxdı, günüm batmışıdı.

Sən nə yaxşı eşitmədin, balalar

Ana vay naləsin ucaltmışıdı...

Ürəyi doğranan anan mələdi,

Dünya zəhrin ona yalatmışıdı...

Yeri gəlmişkən, onu da qeyd edək ki, şair İranın və Azərbaycanın sənətkar qadınlarına böyük sayğı göstərmiş, onları sənətdə qazandıqları uğurlarına görə alqışlamış, şənlərinə şeirlər qoşmuşdur. Misilsiz ifasını çox sevdiyi ustad xanəndə Qəmər-ül-mülk Vəziri, Quzeyə mühacirət etmiş şair Hökumə Bülluri və hələ cavanlıq çağlarından həmsöhbət olduğu, ədəbi məclislərdə birgə iştirak etdiyi, yorulub-usanmadan, həvəslə fikir mübadiləsi apardığı Pərvin Etisamidir. P.Etisami haqqında yazdığı irihəcmli qəsidəsində və "Nakam şairə Pərvin Etisamini yad edərkən" adlı şeirində "İran poeziyasının parlaq ulduzunu vəsf edir, çağdaş fars poeziyasının bu dühası ilə cavanlıq illərindəki dostluq və bağlılığından danışır" . Bu, heyranlıq, lütfkarlıq təsadüfi deyildi. Şəhriyar "kəhkəşan beşiyində Fələyin dayəlik" etdiyi P.Etisaminin söz səmasında əbədiyyən sönməyəcək nurlu bir ulduztək parladığını görür və qəbul edirdi. Görürdü ki, qaranlıqlara məşəl, "fələklərin qulağında zər sırğa, ərşin qüdsi-ayəti" kimi əlçatmaz bir məqama yüksələn Pərvin sənət dünyasında əsrlərlə qalacaq bir həyat qurdu, hər biri bir incitək dəyərli əsərləri onu daim yada salacaq, yaşadacaqdır. Ustad şair bu ucalığın qarşısında aciz qaldığını və onu təfsir etmək üçün bir tərcümanın belə tapılmayacağını etiraf edir:

Ədəbiyyat cəbhəsində qələm alsa kim ələ,

Çalışar o, Pərvinin sənətinə tuş gələ.

İlhamın öz gərdəyində gəlindi bu aypara,

Ulduzlardan gərdənbəndi, şəfəqlərdən zərxara.

Elə bakir gəlirdi o, doğulmuşdu pak nurdan,

Sonsuz, əngin bir fəzadır Pərvinin söz divanı,

Saya gəlməz ulduzları, bəzəmiş asimanı.

İranın görkəmli alimi Səid Nəfisini də Pərvin Etisaminin daxili aləmi, incə təbiəti, sonsuz səmimiyyət və mehribanlığı, xoş rəftarı, yüksək humanizmə köklənmiş zərif duyğuları ovsunlamışdı: "Pərvinin bütün varlığı duyğu, rəğbət və məhəbbətlə o qədər doludur ki, bu onun sıxıntısına və narahatlığına səbəb olur. O, itlər, pişiklər, ev quşları, bütün yetimlər və biçarələr üçün ağlayır, onun ağısı bəşəriyyət naminə, hər cür zülm və sitəm əleyhinə döyünən bir həssas və zərif qəlbin fəryadıdır".

Şəhriyar yaradıcılığında Kövkəb xanım, Sürəyya-Pəri, Əzizə, İran mədəniyyət və musiqi tarixinə adını qızılı hərflərlə yazdırmış xanəndə Qəmər-ül-mülk Vəziri, şair Hökumə Bülluri və Pərvin Etisami, əmisi qızı Rüxsarə, bibisi Sitarə və digərlərindən başqa, ictimai bərabərsizlik, qadın azadlığı, sosial problemlər, amansız istismarın yaratdığı zalım-məzlum konfliktləri kontekstində formalaşmış ictimai qadın obrazı da vardır.

Bu obrazı "Ey qadın" adlı şeirində ədəbi müstəviyə gətirən şair qadınlara kişilərlə bərabər hüquqların verilməməsi, təbiətin zərif yaratdığı incə məxluqları qara çadraya-kəfənə bürüyərək cəhalət və səfalət içərisində, zülm və əsarət altında yaşamağa itələyənləri, diri ikən ölümə məhkum edənləri lənətləyir. Bu kimi ictimai-sosial məsələlərə biganə qala bilməyən və "nə qədər ki, qadınlarımız çadra altındadır, xalqın yarısı ölüdür. Bir cəmiyyətin qadınları bədbəxtdirsə, kişiləri xoşbəxt ola bilməz", - deyən sələfi nakam gənc şair Mirzadə Eşqi kimi Şəhriyar içində yaşadığı cəmiyyətin fərdləri arasında mövcud olan ayrı-seçkilik mərəzi, onları həyata gətirən qutsal varlıqların hüquqsuz, acınacaqlı vəziyyəti ilə barışmırdı. Müxtəlif şeir və poemalarında duruma qarşı içində baş qaldıran etiraz duyğularını poetik dillə ifadə edirdi. "Qadınlığın mahiyyəti ruhani zəriflik, nəvaziş, doğmalıq, məhəbbət, daxili gözəllik, zahiri cəzb, məlahət və ən alisi yüksək nəciblik", poeziya olduğu, musiqidə, mahnı mətnlərində böyük coşqu, heyranlıq, bəzən də kədər notlarına bürüyərək vəsf edildiyi halda, onun ailədə və cəmiyyətdə, hətta dinlərdə aşağılanması, hüquqlarının tapdanması şairin həssas qəlbini incidirdi. Sələflərinin - "Heyrət, ey büt!" deyən Füzulinin, "eşqi yolunda könvü məkanın varını qoyan" Nəsiminin, sevdiyi qadını "Sultanı" sanıb canını fəda edən Xətainin, gözəlin bircə xalına bütün Səmərqəndi bağışlayan Hafizin heyrət etdiyi, kamillik zirvəsinə yüksəltdiyi varlıq tarixən təhqir olunub. Və bu alçaltma az qala ənənəyə çevrilərək tarixin bir mərhələsindən başqa bir mərhələsinə ötürülüb... Şəhriyar Məhəmməd, Davud, İbrahim, Məsiha,

Süleyman, Yusif kimi peyğəmbərlər doğuran qadını yerin-göyün belə yaradıcısı sanır, hüquqlarını tələb etməyə çağırır, əynindəki matəm paltarını, başındakı qara çadranı parçalayıb atmasını diləyir:

Hüququndan söhbət ac, bir söz söylə, ey qadın!

Ağır zəncirləri qır, düşsün dillərə adın.

Bu matəm paltarını parçala bir gün səhər,

Sənin aydınlığından işıq alsın üfüqlər.

Sən ki, həyat nəfəsli Məsiha yaratmısan,

Bəlkə yeri, göyü də elə sənsən yaradan?

Ustad şair qadını günəşin timsalı, nurlu Ay sanırdı, onun özünə yaraşıq verməsini, ox olub naməhrəmin də, məhrəmin də gözünə batmasını, sazlarda nəğmələr kimi yaşamasını, xoşbəxt olmasını, şərəf-şan, səadət bayrağını öz əli ilə bütün dünyaya sancmasını arzulayırdı... Nəinki dəryaca qəminə boyun əyib mütilik göstərməsini...

Bu sonsuz kədərinlə parçalama qəlbimi.

Şərəf-şan bayrağını ucalt öz əməlinlə,

Səadət bayrağını sanc dünyaya əlinlə.

İstərəm görünməsin bir də gözlərində nəm,

Mərd ol, cəsarətini görsün bütün bu aləm.

Sovet dönəmində, dildə azad, demokratik bir quruluş kimi tarixə adını yazdıran sosializm cəmiyyətində isə qadın ictimailəşdi, ancaq azad olmadı. Bu cəmiyyətdə də qadın Asif Əfəndiyevin təbirincə desək, "özünə yaradı, ailəsinə yaramadı, ərinə yaramadı, ictimaiyyətə yaradı, qadınlığa yaramadı. Kişi müstəbidliyindən azad oldu, kişi həyanlığını itirdi. Evdə kişini əvəz etmək istədi, əvəzində ailəni başsız qoydu. Atanı övladın gözündən saldı, övladı atasız qoydu. Kişi kimi danışdı, danışığını itirdi. Kişi kimi davrandı, davranışını itirdi. Kişi kimi yeridi, yerişini itirdi. Anasına qızlıq eləmədi - oğlanlıq elədi. Balasını tələsik öpdü. Onu nəvazişsiz qoydu, Müəssisələrə yaradı, evə yaramadı. Kollektivi idarə elədi, səadətini idarə eləyə bilmədi. Hamıya gözəl oldu, ərinə çirkin. Sevindi, sevilmədi, nitq irad elədi, dilini yanıltdı, fəal olmağa vaxt tapdı. Qadın olmağa vaxt tapmadı, ayıldı, özünü axtardı, amma tapmadı! Poeziya, musiqi qadını ilahiləşdirir, göylərin ucalığına

qaldırır, həyat, şərait, cəmiyyət isə onu göydən yerə salıb, tapdayır. Qadının aqibəti budur".

Şəhriyar cəsarətlə bu aqibətə qarşı çıxır, onu dəyişmək, səadətə qovuşdurmaq arzusu ilə yazıb-yaradırdı... Onun üçün qadın səcdəyə, pərəstişə layiq ali varlıq idi...

Hətta "Səhəndim" deyə nüraciət etdiyi Səhənd dağını insan-qadın-təbiət kimi obrazlaşdırıb və ondan, sanki bir qadından danışırmış kimi bəhs edib... Poemada Ana təbiət və Doğurucu qadının - iki doğurucunun ecazkar bədii dillə qarşılaşdırılması son dərəcə diqqətçəkicidir. "Səhəndim"i Şəhriyar yaradıcılığının zirvəsi - şah əsəri kimi dəyərləndirən Güntay Gəncalpa görə də, "şair şeirlərində təbiəti dişi olaraq görür, qadın bədənini təbiətə bənzədir. Təbiətə toxunuşu da qadın bədəninə toxunuş kimi açıqlayır ".

Hələ ağ kürkü bürün,

yazda yaşıl don da geyərsən,

qoradan halva yeyərsən...

Döşlərində sonalar sinəsitək şux məmələrdə

nə şirin çeşmələrin var...

O yaşıl telləri yel hörmədə aynalı səhərdə

işvəli eşmələrin var...

Bu tendensiyanı "Heydərbabaya salam" poemasında da davam etdirən şair Heydərbaba dağını da qadın-doğurucu-yaradıcı varlıq kimi görür və ondan ölkəsindəki hərc-mərcliyə, haqsızlıqlara son qoyacaq, əmin-amanlıq yaradacaq, xalqını ayaqda tutacaq igidlər, mərd oğullar doğmasını təvəqqe edir:

Heydərbaba, mərd oğullar doğginən,

Namərdlərin burunların ovginən,

Gədiklərdə qurdları tut boğginən,

Qoy quzular ayın-şayın otlasın,

Qoyunların quyruqların qatlasın.

"Hətta şeirimizin "Heydərbabaya salam" kimi kövrək örnəklərində sərt kişi baxışını görürük: Heydərbaba mərd oğullar doğginən. Bu kişi səsidir, biz qadının səsini az eşidirik" deyən sayın Eyvaz Taha da qadına münasibətin dəyişilməsinin gərəkliliyini yazır və Güneylə Quzey qadınlarının sosial şəraitdə - ailədəki özgürlük dərəcəsini müqayisə edir. Bir çox millətlər kimi, bizim tariximiz də kişilərin oylağıdır. Doğrudur, "Dədə Qorqud"da, "Əsli və Kərəm"də və "Abbas və Gülgəz"də qadın söyləmlərilə qarşılaşırıq. Amma bu, ucqardır. Ucqar deyəndə bir daha vurğulamaq istəmirik ki, ərəblər qız uşaqlarını diri-diri basdırırdılar. Bilirik, Hammurabi qanunlarında deyilirdi ki, bir kişi hansısa aristokrat kişinin qızını döyərək öldürsə, o kişinin özü yox, qızı öldürülməlidir. Xoşbəxtlikdən bunlar uzaq keçmişlərdə qaldı. İndi bunu demək istəyirik: mərkəz, tarix boyu ardıcıl olaraq kişilərin əlində olmuşdu. Bunun sonucu aydındır. Qadının səsi şeir coğrafiyasından yoxa çıxdıqda, tarixin qadın yarımkürəsini səssizlik bürüyür: Çağdaş girişimlər də bu susqunluğu ona görə poza bilmir ki, qadını topluma aparıcı amil kimi qaytarmırlar. Ona ucqarda dekorativ bir yer ayırırlar".

"Qadını ucaltmaq gərəkdir!" amacı ilə silsilə məqalələr yazan və Türkiyədə çıxan "Mehtab" dərgisində dərc etdirən böyük Məhəmməd Hadinin fikrincə, qadının cəmiyyət həyatında fəal olaraq iştirak etməsi, o cəmiyyətin "mədəni cəmiyyət" adlandırılmasının əsas şərtlərindən biridir: "Cism-i lətifə ehtiramı olmayan bir millət məhafil-i mədəniyyətə məzhər-ı təltif və şayan-ı ehtiram ola bilməz... Şərq toplumları qadını ikinci plana ittikləri və ona cəmiyyət həyatında layiq olduğu yeri vermədikləri müddətcə qərbin gerisində qalmağa məhkumdurlar" .

"Peyğəmbər" mənzum dramında Hüseyn Cavid həyatı çiçəkləndirən qadın haqqında bütün düşüncələrini ümumiləşdirmiş, islam peyğəmbərinin dilindən qadına cəmiyyətdə verilə biləcək ən yüksək dəyəri ifadə etmişdi:

Qadın - günəş, çocuq -

Ay... nuru Ay günəşdən alır

Qadınsız ölkə çapuq məhv olur, zavallı qalır.

Qadın əlilə fəqət bəxtiyar olur bu cahan.

O bir mələk... onu təqdis edər böyük yaradan.

O çox sevimli, gözəl, incə, nazlı bir xilqət,

Onun ayaqları altındadır fəqət cənnət.

Qadın gülərsə bu issiz mühitimiz güləcək,

Sürüklənən bəşəriyyət qadınla yüksələcək...

Şəhriyar öz dövrünün, əsrinin səsi, vicdanı, el-obasının, xalqının dostu, sınmadan, əyilmədən, dünya nemətlərinə aldanmadan mərdanə yaşayan oğulların, məzlumların-əzilənlərin pənahı, dərddaşı, odlu bir ürək sahibi idi və yaşadığı cəmiyyətin, bu cəmiyyətin fərdlərinin arzu və istəklərini bəyan edirdi. Bu odlu ürək sahibi yalnız həqiqəti deyir, gerçəkləri söyləyirdi... Azərbaycan, Şərq cəmiyyətində, ailədə və toplumda qadının yeri ilə bağlı da o, yalnız gerçəkləri söylədi, sələflərinin və xələflərinin fikrini həm təsdiqlədi, həm də inkişaf etdirdi...